**Əlizadə, Ş**. Azadlıq arzusu / Şahxanım Əlizadə // Xalq qəzeti. - 2022. - 5 iyun. - № 117. - S. 6.

Azadlıq fədailərimizin 1918-ci il mayın 28- də Azərbaycan Xalq Cümhuriyyətini yaratması ilə azad məmləkətimizin yeni erası başlandı. Əsas ideoloji fəaliyyət istiqaməti azadlıq, hürriyyət olan Xalq Cümhuriyyəti böyük çətinliklə müsəlman Şərqində ilkə imza ataraq demokratik, dünyəvi dövlətin qurulmasına nail oldu. Qısa zaman içində milli şüur və özünüdərkin aşılanması istiqamətində ideoloji məktəbin əsasını quran istiqlalçılar uğurlu milliləşmə prosesi ilə yanaşı, beynəlxalq münasibətlərin vacib aktoruna çevrilə bildilər.

İstiqlaliyyətini qazanan ölkə başdan-başa milliləşdi, dilimiz, əlifbamız, mədəniyyətimiz, tariximiz yabançı ünsürlərdən təmizləndi. Üçrəngli bayrağımız həyat rənglərimizə çevrildi, məmləkətimizə sahib çıxdıq. Cəmi 23 aylıq qısa və mənalı ömür yaşayan Xalq Cümhuriyyəti, təəssüflər olsun ki, qəsbkar qüvvələrin işğalı ilə nəticələndi. Azərbaycan Xalq Cümhuriyyəti həmin müddət ərzində bir çox mühüm, ciddi işlər həyata keçirərək, xalqın xilasını təmin edib, azadlıq yoluna işıq salıb. O zaman Azərbaycanda ilk universitet fəaliyyətə başlayıb. AXC-nin fəaliyyəti nəticəsində dini, irqi bərabərsizlik ara-dan qaldırılıb, bir çox sahələrin inkişafı təmin edilib. Təhsilin yüksəldilməsinə böyük töhfələr verilib. Xalqın hüquq və azadlıqları bərpa edilib, insanların haqları qorunub. Ən əsası, sadalamaqla bitməyən neçə belə imzaların atılmasına müvəffəq olunub.

Lakin düşmən niyyətlərə qulluq edən qüvvələrin güdazına gedən AXC 1920-ci il 28 apreldə fəaliyyətini dayandırıb. 1993-cü ildə dünyamiqyaslı lider, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi bütün qorxu və narahatlıqların sonu oldu. Onun prezidentlik fəaliyyəti Azərbaycanın buludlu səmalarına aydınlıq gətirdi. Elə bir aydınlıq ki, onun işığı hələ də bizə nurlu yol göstərir. Müasir, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Onun apardığı islahatların nəticəsində dövlətimiz sürətli inkişaf yoluna qədəm basdı. Ulu öndər dəfələrlə Azərbaycan Xalq Cümhuriyyəti haqda vurğulayıb ki, biz bu gün Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. O, deyirdi: “Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır”. Ulu öndər Heydər Əliyev Xalq Cümhuriyyətinə böyük dəyər, xüsusi önəm verirdi. Bu gün də onun siyasi kursunun davamçısı Prezident İlham Əliyev bu dəyəri qoruyub saxlayır. Hər il ölkəmizdə 28 May – Müstəqillik günü böyük ehtiram, təntənə və coşqu ilə qeyd olunur.